DOI:10.30546/gdu.2023.334-338

# MÜXTƏLİF FORMADA ÜST CİBLƏRİN İŞLƏNMƏSİ VƏ BİRLƏŞDİRİLMƏSİ ÜSULLARI

***Əliyeva Afət Həmid qızı***
***Gəncə Dövlət Universiteti***
***tunzalehuseyinova70@gmail.com***

**Xülasə:** *Məqalədə müxtəlif formada üst ciblərin ölçüsünə, konstruksiyasına, parçanın naxışına, görünüşünə görə (bəzəkli, bəzəksiz) ciblərin yuxarısı listiksiz hazırlandıqda yapışqanlı və kətan knopka qoyulur və parçanın xassəsindən asılı olaraq listik cibin yuxarısına 0,5 – 1 sm enində tikişlə birləşdirilir. Üst ciblərin qabaq hissəyə modaya uyğun olaraq bərkidici tikişlə, yapışdırma və nəmlənib isidilmə üsulu ilə bortaltı çıxıntılarının birləşdirilməsindən bəhs olunur.*

*Üst ciblərin müxtəlif konstruksiyalarda hazırlanması ilə yanaşı kəsik ciblərin, tukişdə və relyef xəttində olan ciblərin, üst ciblər və qoltuq ciblərin, listik və astarla işlənməsi zamanı 1sm enində çərtikləri uyğunlaşdırmaqla tikilir və geyim hissəarinə birləşdirilir.*

**Açar sözlər:** ülgü, listik, listik altı, kromka, köbə, baxyalama, astar, pres, podzor, bort, koketka

**Ключевые слова**: стамеска, лист, под лист, кромка, кобе, бабаялама, вагонка, пресс, подзор, доска, кокетка

**Keywords:** chisel, sheet, under sheet, edge, kobe, babayalam, lining, press, valance, board, coquette

Uzun müddət ərzində geyimlərin formalarını daim saxlamaqla onun ayrı – ayrı elementləri, bəzək hissələrinin forma və yerləşmələri dəyişdirildi. Belə dəyişikliklər mövsümdən – mövsümə modanın təsiri altında baş verirdi.

Geyimlərin inkişafı prosesində üst ciblərin funksiyası həmişə dəyişmişdir. Müasir qadın geyimlərində ciblər əsasən funksional – dekorativ rol oynayır. Ciblərin formasına, konstruksiyasına, ölçüsünə, yerləşməsinə və bəzəyinə dəb çox böyük təsir göstərmişdir.

Üstdən qoyma, kəsik və tikişdə olan ciblər mövcuddur ki, bunlardan da hər biri özünəməxsus müxtəlifliyə malikdir.

Geyimlərdə geniş yayılmış üst ciblər ölçüsünə, konstruksiyasına naxışına, görünüşünə, icra qaydasına və birləşdirilməsinə görə olduqca müxtəlifdir. Belə ciblər iki mərhələdə hazırlanır: ciblərin hazırlanması və qabaq hissəyə birləşdirilməsi.

Üst ciblər yun, tüklü dəri, rezinləşdirilmiş başlıq parçalardan olan geimlərdə astarla, üzərinə pərdə çəkilmiş kapron parçalardan hazırlanan plaşlarda sırıqlı, üstünə əlavə xətt çəkilmiş və xətli əsaslı materiallardan tikilən geyimlərdə isə astarsız tikilir.

Ciblərin işlənilməsi – parça naxışlı olduqda, ciblərin qabaq hissəyə uyğunlaşdırılması üçün onlar bir qədər böyük biçilir.

Bu halda cib qabaq hissənin üzərinə naxışlar bir – birinə uyğunlaşdırıldıqdan sonra köməkçi ülgü ilə dəqiqləşdirilir və tikiş payı saxlanmaqla artıq parça kəsilir.

Cibin yuxarısı xarici görünüşünə görə bəzəksiz və ya listikli naxışlı kəsiklə, yaxud kənarı düz xətli və ya əyri xətli olur.

Cibin yuxarısına listiksiz hazırladıqda yapışqanlı və ya kətan kromka isə cibin qeyd olunmuş qatlanma xətti boyu qatlanan tərəfinə qoyulub yuxarı kənarı ilə tikilir.

DOI:10.30546/gdu.2023.334-338




(şəkil 1). Üst ciblər

Yuxarı tərəfin düzxətli ciblərinin qatlanma payı astar tərəfə ütülənir və 0,5–0,7 sm enində içəri qatlanmaqla xüsusi maşında gizli tikişlə cibə bərkidilir.

*Kənarı əyri xətli ciblər* – cibin yuxarısı öz formasında biçilmiş göbə ilə hazırlanır. Az dartılmaqla eyni zamanda kromka da tikilir. Tikiş payı çərtilərkən ciblərin içəri tərəfinə qatlanılır. Cibin materialında 0,2–0,3 sm kant düzəltməklə ütüləyirlər. Kəbənin kənarı cibə yuxarıda qeyd edildiyi kimi tikilir.

Əgər modaya görə cibin yuxarı tərəfində üst baxya nəzərdə tutulmuşdursa, onda lazımi endə baxyalanır.

Cib kəsilməmiş, listikli olduqda içəri tərəfdən iki xətlə qeyd edilir. Bir xətlə - listikin eni müəyyənləşdirilir. Cib üst tərəfi içəri olmaqla qatlanır və həmin yerdən 0,5 sm məsafədə tikilir. Tikiş üst tərəfə ütülənib yatırdılır. Kromka cibin yuxarı tərəfinə, təhlil edən ikinci xətlə qoyulur. Listik cibin iç tərəfinə çevrilib ütülənir. Kəsik 0,5–0,7 sm içəri qatlanmaqla cibə əl ilə və ya xüsusi maşında gizli tikişlə basdırılır.

Listikin yuxarısı düzxətli hazırlandıqda qeyd olunmuş qatlanma xəttinə kromka qoyulur. Parçanın xassəsindən asılı olaraq listik cibin yuxarısına 0,1–1 sm enində tikişlə birləşdirilir. Tikiş ütü ilə yaxud presdə açılıb listik tərəfə ütülənir. Listik qatlanır və ütülənir. Aşağı kəsik içəri qatlanıb cibə əl ilə və yaxud xüsusi maşında gizli tikişlə basdırılır. Cib astarlı olduqda listikin kəsiyi cib astarına tikilir.

Cibin tərəflərinin işlənilməsi cibin qabaq hissəyə birləşdirilməsi üsulundan və modadan asılıdır. Əgər cib qabaq hissəyə bərkidici tikişlə birləşdirilərsə, onda cibin kənarları işlənilmir. Əgər birləşdirmə üst baxya ilə icra edilirsə, bu halda. O, qatlnaraq əl ilə və ya xüsusi maşında kökləni, sonra ütülənir, yaxud qatlayıcı olan preslərdə işlənilir.

Əgər üst cib astarlıdırsa, onda yan və aşağı tərəfi astarla birlikdə çevrilən tikişlə icra edilir və ya yan tərəfdə cibin çevrilməsi üçün ayağı açıq saxlanılır. Cib həmin açıqlıqda üst tərəfə çevrilir, kənarlar düzəldilir və açıqlıq əl tikişi ilə bəndlənir.

Üst ciblərin kəsilmiş giriş yeri ilə hazırlanması da qapaqlı, qapaqsız, kəsik yan ciblərin hazırlanması kimidir. Açıqlığın sonlarının içəri tərəfi gizli tikişlə bərkidilir. Kəbənin aşağı kəsiyinə cibin astarı calanır. Cib açıqlığının aşağı tərəfi baxyalanır. Ciblərin yuxarı tərəfi içəri tərəfdən köklənir və ütülənir.

**1. Üst ciblərin qabaq hissəyə birləşdirilməsi**

DOI:10.30546/gdu.2023.334-338

Qabaq hissədə birləşdirmə - yığma, bükmə və baxyalanma, nəmlənib-isidilmə əməliyyatı apardıqdan sonra qabaq hissədə ciblərin yeri köməkçi ülgü ilə üç xətlə qeyd olunur: bir xətlə - cibin yuxarı kənarlarının, iki xətlə - cibin yan kənarlarının yeri müəyyənləşdirilir.

Əgər ciblər qabaq hissəyə bərkidici tikişlə tikilirsə, onda cibin yeri ülgü ilə müəyyənləşdirilir. Dəqiq birləşdirmək üçün künclərdə təbaşirlə əlavə olaraq çəkilir, kənardakı çərtiklərlə birləşdirilib cib qabaq hissəyə tikilir.

Cibləri qabaq hissəyə birləşdirilməzdən əvvəl astarlı geyimlərdə qabaq hissənin tərs üzünə, ciblərin küncləri yerləşəcək yerə, üstü yapışqanlı və yapışqansız parça tikəsi qoyulur.

**2. Ciblərin qabaq hissəyə bərkidici tikişlə birləşdirilməsi**

Əgər cib astarlıdırsa, onda qabaq hissəyə əvvəlcə astar tikilir. Astarın üst tərəfi aşağıya olmaqla qabaq hissənin üstünə qoyulur. Yuxarı tərəfi 1sm enində içəri qatlanır və üç tərəfdən (cibin aşağısından və iki yan kəsiyindən) 0,7-1sm enində baxyalanır, tikişin sonu irəli-geri tikilişə möhkəmləndirilir.

Cibin iç tərəfi yuxarıya olmaqla qabaq hissənin üzərinə qoyulur, yuxarı kənarları və yan kəsiyi müvafiq xətlərə, cibin künclərindən nəzarət çərtikləri isə qabaq hissədəki nəzarət xətlərinə uyğunlaşdırılır və 0,5-0,7sm enində tikilişə birləşdirilir. Astarın yuxarı kənarı əl ilə və ya xüsusi maşınla basdırılır. Cib astarının yuxarısı 0,2-0,3sm uzunluğunda əl ilə cibə bəndlənir. Ciblərin yuxarı tərəfi künclərdə qabaq hissəyə hər iki tərəfdən 0,5-1sm gizli əl tikişi ilə birləşdirilir. Əgər modada nəzərdə tutulmuşdursa, cib üstdən baxyalanır.

Əgər cib astarlıdırsa, onda əvvəlcə astar cibin qatlanmış tərəfi – kəsiyi ilə listikə calanır, sonra isə qabaq hissəyə qeyd olunmuş xətlərə uyğunlaşdırılıb tikilir.

Cib astarının kənarı qatlanmış olduqda 0,7-1sm enində baxyalanır. Astarın kənarı içəri tərəfdən 0,7-1sm qatlanmış olarsa, həmin yerdən 0,2-0,5sm enində tikilir. Cib qabaq hissənin üstünə qoyulur və astarsız cibdə olduğu kimi birləşdirilir.

**3. Üst ciblərin yapışdırılma üsulu ilə qabaq hissəyə birləşdirilməsi**

Əgər cibdə üst baxya tikişi nəzərdə tutulmuşsa, onda cib qabaq hissəyə aşağıdakı kimi birləşdirilir: əvvəlcə cibə astar qoyulur, onun kənarları 3-4 təkrar tikişlə bəndlənir və cib qabaq hissəyə yapışdırılır.




Şəkil 2. a) Qatlamalı üstdən qoyma cib, b) cib qapaqları.

*Ciblərin ütülənməsi* – cib əvvəl astar, sonra isə üst tərəfdən xüsusi yastığı olan presdə və ya əl ilə üzərinə material sərilməklə ütülənir.

DOI:10.30546/gdu.2023.334-338




***Şəkil 3. Üstdən qoyma dəyirmi və düz ciblər.***

**4. Ciblərin bortaltı çıxıntılarının işlənilməsi**

Qış və mövsümi paltarlarda qabaq hissədə bortaltının daxili kəsiyi və ətəyinin qatlanmaq payı astarlıq parça ilə və ya lentlə haşiyələndikdə, qoltuq cibləri bortaltı çıxıntısında hazırlanır. Parçaya qənaət məqsədilə həmin çıxıntı əksərən ayrıca hissə kimi biçilir. Belə olduqda əvvəlcə çıxıntı bort altında qeyd edilmiş yerə və ya cib hazırlandıqdan sonra cib astarının üzərinə podzor tikilir.

*Qadın geyimlərində daxili ciblərin hazırlanması.* Qadın geyimlərinin astarlarına kəsik qoltuq cibləri tikilir. Daxili cib astarın sağ qabaq hissəsində bort altıya birləşən tikişdə yerləşdirilir. Yan cibləri olann geyimlərdə daxili cib qoyulmaya da bilər, kənarları 0,7sm içəri qatlanmaqla cib astarının yuxarı hissəsində 1sm, aşağı kənarı boyu, 1-2sm eninə basdırılır. İki hissədən ibarət olan cib astarları 1sm enində, kəsiyin sonunna 1sm qalana qədər bərkidici tikişlə işlənilir. Cibin üst astarı sağ qabaq hissənin astarına 1sm enində, çərtikləri uyğunlaşdırmaqla tikilir.

**5. Kəsik ciblərin işlənilməsi**

Üst ciblər müxtəlif konstruksiyalarda hazırlanır: *kəsik ciblər, tikişdə və relyef xəttində olan ciblər, üst ciblər və qoltuq ciblər.*

*Kəsik ciblər vəziyyətinə görə:* yan və döş, kəsim yönəlişinə görə - şaquli, üfüqi, maili; kəsilməsinə görə - listikli, qapaqlı, köbəli, kantlı, ramkalı və s. növlərə ayrılır.

*Kəsik qapaqlı yan cibin işlənilçəsi* – Bu ciblərin hazırlanması üçün, əvvəlcə qapaqlı listik və astarlı işləmək, sonra isə onları yığmaq lazımdır. Kənar kəsiklər əsas yan cib astarı ilə eyni vaxtda tikilir. Əsas cibə - astarın yuxarı kəsiyinə, geyimin astarlıq parçasından, ya da əlavə lentdən, yan və yuxarı kəsiyi bərabərləşdirməklə podzor tikilir. Podzorun aşağı kəsiyi 0,7-0,8sm enində içəri qatlanır və həmin xətdən 0,1sm məsafədən əsas cib astarına tikilir. Əgər əlavə cib astarından cib ayrıca hazırlanmış olarsa, onda bərabərləşdirilib astara baxyalanır.



**Şəkil 4.** Kəsik ciblər: a) Tumana yandan qoyulan (qabaq) kəsik cib, b) baxyalanmış kəsik cib, v) qapaqlı kəsik cib, q) tuman tikişində olan kəsik cib.

DOI:10.30546/gdu.2023.334-338

Bəzən əlavə cibə qapaq tikilir. Bu halda qapaq podzir tərəfdən (üz tərəfi yuxarıya olmaqla) qapaq kəsiri ilə astarın podzoru tərəfə uyğunlaşdırılmaqla qoyulur. Qapağın yuxarı tərəfi elə yerləşdirilir ki, astarın yan kəsiklərində eyni məsafədə olsun. Qapaq qeyd edilmiş xətlə tikilir.

Cib astarının o biri tərəfinə 0,7-1sm enində cib köbəsi tikilir.

***Ədəbiyyat***

1. Z. Ağayeva "Geyim məmulatının hazırlanması texnologiyası və onun tədrisi metodikası"AYAH 2000
2. G.N.Alıyeva "Geyimlərin konstruksiyası və modelləşdirilməsi" Bakı . 1999
3. Bacarıqlı əllər Azərbaycan uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı Bakı. 1953
4. N. Orucov və J.T. Rzayeva "Texnologiya" Bakı . 2006
5. "Evdarlıq" Azərbaycan Dövlət Nəşriyyatı Bakı 1990-cı il
6. O.Şamxalov. "Tikiş maşınlarının təsnifatı" Bakı 1998
7. Y.T.Rzayeva. "Tikiş texnologiyası" Bakı 2003

## СПОСОБЫ ИЗГОТОВЛЕНИЯ И СОЕДИНЕНИЯ РАЗЛИЧНЫХ ФОРМ ВЕРХНИХ КАРМАНОВ

***Алиева Афат Гамид кызы***

***Резюме***

В изделии в зависимости от размера, конструкции, рисунка ткани, вида (декорированные, недекорированные) верхних карманов в разной форме, при выполнении верха карманов без клапана, ставится клеевая и брезентовая пуговица, и в зависимости от свойств ткани клапан соединяется с верхом кармана швом шириной 0,5-1 см. Говорится о соединении подбортных выступов верхних карманов с передней деталью модным закрепочным швом, склейкой и подогревом.

Кроме изготовления верхних карманов в различных конструкциях, врезных карманов, карманов в статочных и рельефных строчках, верхних карманов и пройм карманов сшивают путем совмещения разрезов шириной 1 см при обработке ткани и подкладки и соединяют с деталями одежды.

## METHODS FOR MANUFACTURING AND CONNECTING TOP POCKETS OF DIFFERENT SHAPES

***Əliyeva Afət Həmid qızı***

***Summary***

In the product, depending on the size, design, fabric pattern, type (decorated, undecorated) of the upper pockets in different shapes, when making the top of the pockets without a flap, a glue and canvas button is placed, and depending on the properties of the fabric, the flap is connected to the top of the pocket with a seam wide 0.5-1 cm. We are talking about the connection of the belly ledges of the upper pockets with the front part with a fashionable bartack seam, gluing and heating.

In addition to the manufacture of upper pockets in various designs, mortise pockets, pockets in fixed and embossed stitches, upper pockets and armhole pockets, they are sewn by combining cuts 1 cm wide when processing fabric and lining and connected to clothing details.

***Rəyçi: t.ü.f.d. Tağıyeva Saidə Abduləli qızı***
***Protokol №-5, 27.01.2023-cü il***
***Daxil olma tarixi 07 fevral 2023-cü il***